*Muxtarova Sevinc. Tarixdə yaşayan xeyriyyəçi*
*//Elmi əsərlər,2022,1(14),yanvar-iyun,s.65-69.*

**TARİX**

UOT 94+364.054 (479.24)

**Sevinc Muxtarova,**
*AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu,*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
seva_mukhtarova@mail.ru

# TARİXDƏ YAŞAYAN XEYRİYYƏÇİ

**Açar sözlər:** *milyonçu, Hacı Zeynalabdin Tağıyev, xeyriyyəçi, mesenant, maarifpərvər*

Orta yüzilliklərdə yaşamış görkəmli Azərbaycan şairi Sahib Təbrizi öz şeirlərinin birində insana müraciətlə demişdir: "Yadında varmı ki, sən bu dünyaya gələndə hamı gülür, sevinir, sən isə ağlayırdın. Həyatda elə et ki, sən bu dünyanı tərk edərkən hamı ağlasın, sən isə güləsən... Həyatdan alnı açıq, vüqarla gedəsən".

Xalqının ehtiyaclarına bütün varlığı, qəlbi ilə səs verən, Bakının quruculuq işlərinə ömrünü damla-damla sərf edən, həyatının mənasını millətinə xidmətdə görən fədakarlıq simvollarından biri Hacı Zeynalabdin Tağıyevdir. Millətin müstəqil dövləti olmadığı bir zamanda Tağıyev bu dövlətin görəcəyi işləri həyata keçirmiş, neftdən əldə etdiyi gəliri millətinin tərəqqisinə sərf etmişdir. Bakıda qısa müddət ərzində bütöv bir ziyalı nəslinin təşəkkül tapması həm də Tağıyevin və digər Azərbaycan xeyriyyəçilərinin əməyi və vəsaiti sayəsində həyata keçmişdir. Xeyirxahlığa, insanlığa can atmaq Hacı Zeynalabdin Tağıyevin həyat kredosuna çevrilmişdir.

O, Azərbaycanda neft sənayesinin inkişafında xidmətləri olmuş böyük xeyriyyəçi, maarifpərvər və ictimai xadim kimi qiymətləndirilir. Həqiqətən də, Hacı Zeynalabdin Tağıyev XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycanın görkəmli mesenantı kimi tarixə düşmüşdür. Məlumdur ki, elm və incəsənətə hamilik edən varlı şəxs mesanat adlandırılır. Arxiv sənət və materialları, həmçinin digər tarixi mənbələr təsdiq edir ki, Hacı Zeynalabdin Tağıyevin elmə, təhsilə və mədəniyyətin müxtəlif sahələrinə göstərdiyi hamilik – mesenatlıq fəaliyyəti olduqca zəngin və çoxşaxəli olmuşdur [ 4, s.3].

Müasirləri böyük Azərbaycan mesenatı və maarifçisi, türk-islam dünyasının tanınmış filantrop-xeyriyyəçisi, sənaye təşkilatçısı, Vətənimizdə milli sahibkarlığın görkəmli nümayəndəsi Hacı Zeynalabdin Tağıyevin(1838-1924) millət və insanlıq qarşısındakı xidmətlərini yüksək qiymətləndirərək onu "Qafqaz müsəlmanlarının fəxri", "müsəlmanların başçısı", "islamın böyük fəxri", "millətin müqəddəs atası", "fəqir-füqəranın(kasıb və kimsəsizlərin) hamisi və ümidi" və s. bu kimi yüksək epitetlərlə öyür, təqdir edirdilər. Sözsüz bütün bunlar səbəbsiz deyildir. Çünki, bu böyük insan şərəfli ömrünün 70 ilini yorulmadan vətənin yüksəlişinə, millət və insanlığın tərəqqisinə, xalqın maarifləndirilməsinə, milli ziyalıların yetişdirilməsinə həsr etmişdir [ 5].

"Anaları savadsız olan xalq kordur" - deyən Şərq-islam dünyasının ilk mesenatı H.Z.Tağıyev millətin tərəqqisində qadının rolunu düzgün qiymətləndirərək türk-islam aləmində ilk dünyəvi milli qadın təhsili ocağının Azərbaycanda yaradıcısı və banisi kimi də mədəniyyət tariximizə imzasını atmış böyük maarif fədaisi, tarixdə iz qoymuş nadir şəxsiyyət idi.

"Sərvət və səxavətlə məşhur olan cənab Hacı Zeynalabdin Tağıyev" in 1838-ci ildə anadan olduğu qeyd edilir [3, s.3]. Onun atası Tağı Tağıyev Bakıda İçərişəhərdə pinəçi idi. Anası Ümmü xanım Zeynalabdinin 10 yaşı olanda vəfat etmişdi. Məhz bu yaşdan

Z.Tağıyevin əmək yolu başlayır: o, bənna şagirdi kimi çalışaraq, son dərəcə cüzi olan ailə büdcəsinə gündə 6 qəpik gətirirdi. Beş ildən sonra o, tamamilə bənnalıq sənətinə yiyələnir, tikinti fəaliyyətinin əsaslarını öyrənməyə davam edir. Elə bu ərəfədə Bakıda ilk neft dalğası başlayır. İşgüzar gənc Z.Tağıyev uzaqgörənliyi ilə yanaşı, həm də olduqca cəsarətli idi: o, riskə getdiyini çox gözəl başa düşərək neft biznesinə qoşuldu. Bununla yanaşı 1870-ci ildə H. Z.Tağıyevin artıq kiçik ağ neft zavodu vardı və 1872-ci ildə istehsalın yüksək olması sayəsində o, "H.Z. Tağıyev" şirkətinin əsasını qoymuşdu. O, bununla kifayətlənmir, bir il keçdikdən sonra iki ortağı ilə birlikdə Bibiheybətdə icarəyə torpaq götürərək avadanlıq alır və buruq quraraq quyu qazmağa başlayır. Lakin beş il ərzində uğur onların üzünə gülmür, xərclər artır, neft isə çıxmırdı. Ümidlərini itirən 3 ortaqlar "zərərli biznesdən" çıxmaq qərarına gəldilər. Zeynalabdin isə onlar tərəfindən qoyulan kapitalı qaytarmaq məcburiyyətində idi. Buna baxmayaraq o, həsəd aparılacaq inadla "qara qızıl" axtarmağa davam edirdi. Onun bu inadı əbəs yerə olmadı. 1878-ci ildə dörd quyudan birində neft fontan vurdu. Bu hadisə həmin andan Z.Tağıyevin şirkətini neft sahəsində öndə gedən müəssisələr sırasına çıxardı. Beləcə, kasıb pinəçi Tağının oğlu milyoner Tağıyev oldu [2, s.3].

Hacı Zeynəlabdin Tağıyev öz dövrünün yalnız məşhur neft sahibi deyildi. Onun həmçinin Kür-Xəzər dənizi kənarında böyük balıq vətəgələri, dəyirmanı, iri toxuculuq fabriki, Quba, Yevlax ətrafında, Ənzəli, Rəşddə geniş meşə sahələri, ticarət, yük və sərnişin gəmiləri vardı. O, həmçinin Bakıda və Moskvada böyük imarətlər sahibi kimi də tanınmışdı [4, s.4].

Tağıyev tanınmış azərbaycanlı maarifpərvər, xeyirxah milyonçu olaraq Şərqdə ilk qızlar məktəbinin yaradıcısı kimi tarixə düşmüşdür [4, s.4]. 1901-ci ildə 300 min manatlıq vəsait sərf edərək, Bakıda ilk qızlar məktəbi tikdirir. Bu bütün Zaqafqaziyada yeganə qızlar məktəbi idi. Binanı 1898-ci ildə tikməyə başlayırlar. 1900-cü ildə hazır olur. Bu məktəb Nikolayevski (Kommunist) küçəsində (Azərbaycan SSR Elmlər Akademiyasının Əlyazmaları fondunun binası) AMEA-nın M. Füzuli adına Əlyazmalar İnstitutunda yerləşir. Qızlar məktəbinin binası memarlıq baxımından Azərbaycan memarlığının milli-romantik üslubundadır. Əsas fəsaddakı divar bir cərgə ağ, digər cərgə isə qızılı daşdan hörülüb. Hacı Zeynalabdin Tağıyev bütün Rusiyada birinci növbədə öz mesenatlığı və maarifpərvərliyi ilə tanınmışdır. Onun maarifpərvər xidmətləri əsasən XX əsrin əvvəllərindən başlayır. Bu da təsadüfü deyildi. 1905-ci il inqilabından sonra hökümətin Oktyabr bəyannaməsi ölkədə mədəni-maarif işlərinin canlanmasına səbəb oldu. Ölkənin hər yerində xeyriyyə məqsədi ilə bir sıra cəmiyyətlər yarandı. Qəzet və jurnallar çap edilməyə başladı. Bu cəmiyyətlərin yaradılması, qəzet və jurnalların çap edilməsi birinci növbədə Tağıyevin adı ilə bağlıdır. Bu işdə Tağıyev bir növ təşkilatçı rolunu oynayırdı. Xeyriyyə məqsədilə yaradılan cəmiyyətlər ya Tağıyevin şəxsi iştirakı və vəsaiti ilə, ya da onun yaxından köməyi ilə yaradılmışdır. İlk xeyriyyə cəmiyyəti 1905-ci ildə yaranmış Müsəlman Xeyriyyə Cəmiyyəti idi. Bundan başqa "Nəşr və maarif", "Nicat" cəmiyyətlərinin yaranmasında da Hacı Zeynalabdin Tağıyevin yaxından köməyi olmuşdur.

Ümumi şəkildə götürüldükdə, Hacının maarif sahəsindəki xidmətlərinin coğrafiyası çox geniş və çoxcəhətlidir. 30 min manatdan artıq xərc çəkib yetim və kasıb uşaqlar üçün Mərdəkanda kənd təsərrüfatı təmayüllü internat məktəb açır, teatr binası tikdirib, artist və yazıçıların istifadəsinə verir, qiraətxanalar üçün qəzet və jurnalların pulunu ödəyir, öz xərcinə Azərbaycan alim və şairlərinin əsərlərini, həmçinin azərbaycancaya tərcümələri çap etdirir, 1905-1911-ci illər İran məşrutə hərəkatına M.Muxtarovla birlikdə silah və pulla yardım edir. İranda onlarla məktəbin açılmasına yardım göstərir, onları məktəb ləvazimatı və zəruri kitablarla təmin edir, daxildə və xaricdə oxuyan və maddi təminata ehtiyacı olanları daim diqqət mərkəzində saxlayır. Tamamilə savadsız olan Hacı savadsızlığın acı-

sını duymuş buna görə də vətən övladlarının, xüsusilə, kasıb, yetim oğlan və qızlarımızın təhsil almasına böyük qayğı göstərmişdir. Bakı ətrafı kəndlərdə axar suyun yoxluğu su dəyirmanı qurmağa imkan vermirdi. Bunu nəzərə alaraq Hacı Mərdəkanda 1899-cu ildə dən üyüdən elektrik dəyirmanı tikdirir və qəsəbənin əhalisinə ilk dəfə elektrik işığı verir [ 3, s.8].

H.Z.Tağıyev ilk dəfə olaraq Qurani-Kərimi Azərbaycan dilinə tərcümə etdirib. Məhz Hacının təşəbbüsü və xeyriyyəçiliyi hesabına Azərbaycanda bir çox dini abidə inşa olunub.

Bakı əhalisi su sarıdan çox əziyyət çəkirdi. Bələdiyyə idarəsi bu məsələni aradan qaldırmaq üçün hələ 1880- ci ildən tədbirlər görməyə başlamışdır. Əvvəllər Bakı ətrafında su mənbəyi axtarılır, sonra Şamaxı ətrafında kəşfiyyat işləri aparılırdı. Bütün səylər boşa çıxır. 1892-1898-ci illərdə Kür çayından Bakıya su kəməri çəkmək layihəsi hazırlanır, lakin bu layihədə göstərilən kəmər çox baha başa gəldiyinə görə, bələdiyyə idarəsi layihəni təsdiq etmir [6, s.29].

1899-cu ildə şəhərdə vəziyyətin həddindən artıq ağır olduğunu görən H.Z.Tağıyev xarici şirkətlə 25000 manata müqavilə bağlayır. Avropanın bir neçə şəhərinə su kəməri çəkmiş mühəndis Vilyam Lindleyni Frankfurt Mayndan gətizdirir və ona çeşmə axtarmağı tapşırır. Bələdiyyə idarəsinə də deyir ki, su tapılandan sonra pulumu versəniz yaxşı, verməsənizdə eybi yoxdur. Lidney Qubanın yaxınlığında, Bakıdan 190 kilometr uzaqda quyu qazdırıb, şollar suyunun mənbəyini kəşf edir. Bələdiyyə idarəsində Quba ətrafında tapılmış su mənbəyinə şübhə ilə baxırlar, inanmırlar, kəmər çəkməyi rədd etməyə çalışırlar. Tağıyev şübhə edənlərə deyir ki, Şahdağ öz qarı və buzlaqları ilə əbədi olduğu kimi, şollar çeşməsinin də suyu əbədidir [6, s.30]. Şollar su kəməri bu günə qədər fəaliyyətdədir, Bakını və Sumqayıtı təmiz içməli su ilə təmin edir. Məhz onun təşəbbüsü və maliyyə dəstəyi ilə Bakıda teatr binası inşa edilmişdir, bir çox sənaye müəssisəsi tikilmişdir.

O zamanlar dustaqları Nargin adasında saxlayırdılar. Camaat oraya gedib-gələndə yaman əziyyət çəkirdi. Axırda Hacı Zeynalabdinə müraciət edirlər ki, bu işdə bizə kömək elə, dərdimizə çarə qıl. O, da o zaman şəhərin ucqar yeri hesab edilən Quba (Füzuli) meydanı ilə, Köpürçü meydanı arasında tikdirdiyi beş mərtəbəli dəyirmanı (indiki şirniyyat fabrikini) dustaqxana üçün verir.Bu barədə digər bir rəvayət də var. Bakıya yüksək rütbəli təzə məmur təyin edilir. Hacı onun görüşünə gedir və deyir ki, sizə nə kömək lazımsa, utanmayın, söyləyin, mən padşahlıqdan heç nə müzayiqə edən deyiləm. Yüksək rütbəli şəxs izah edir ki, “dustaqları Nargin adasında saxlayırıq, işçilər gedib qayıtmağa çox vaxt sərf edirlər, həm də, əziyyət çəkirlər, mümkünsə bu işdə bizə kömək edin”. Hacı Zeynalabdin tikilib qurtarmış dəyirman binasını dustaqxana üçün verir. Xaricdən gətirdiyi dəyirman avadanlığını toxuculuq fabriki yerləşən əraziyə daşıtdırıb, orada dəyirman tikdirir. Özünün də ailəsi yaşamaq üçün fabrikin yaxınlığında xüsusi mülkü vardı və vaxtaşırı orada qalırdılar. Müəllim Soltan Məcid Qənizadə maarif-mədəniyyət işləri ilə əlaqədar tez-tez Tağıyevlə görüşürmüş.Nəql edirdi ki, məşhur rus kimyagəri Mendeleyev Bakıya gələndə Tağıyev onu evinə dəvət edib,şərəfinə ziyafət verir.Hacının kabinetində, stol üstündə Mendeleyevin avtoqrafı ilə xatirə fotoşəkil dururdu. Mendeleyev Avropada ən ətraflı ensiklopediya hesab edilən Brokqauz və Yefron ensiklopediyasında Hacı Zeynalabdin Tağıyev, onun palçıq daşıyan fəhlədən milyonçu neft sahibkarına qədər yüksəlməsi barədə məlumat nəşr etdirir. 1863-cü ildə V.A.Kokoriyev neft zavodlarına baxmaq üçün məni (Mendeleyevi) Bakıya dəvət etdi. Dövlət idarələri ilə əlbir neft sənayesində altı nəfər: Kokoryev, Burmeystr, Hacı Tağıyev, Lents, Nobel, Kubanda isə polkovnik A.H.Novoseltsov mühüm mövqe tuturdu. Hacı Tağıyev Bakı neft sənayesini hərəkətə gətirən, ona təkan verən əsas şəxslərdən biridir [6, s.38].

Hacı Zeynalabdin iki dəfə evlənmişdir. Birinci arvadı öz əmisi qızı Zeynəb xanım idi. Zeynəb xanımdan onun iki oğlu, bir qızı olmuşdu. Oğlanları: İsmayıl, Sadiq və qızı Xanım.

İkinci arvadı məhşur general-leytenant Balakişi bəy Ərəblinskinin qızı Sona xanım idi. Ərəblinskinin iki qızından böyüyü Hacının oğlu Sadiqin arvadı idi. Hacı oğlugildə olarkən, kiçik bacı Sonanı görüb, bəyənmiş və onunla evlənmişdi. Sona xanımdan Tağıyevin üç qızı və iki oğlu olmuşdur. Qızları: Leyla (sonralar Şəmsi Əsədullayevin oğluna ərə getmişdi), Sara və Sürəyya. Oğlanları Məhəmməd və İlyas. Məhəmməd "Dikaya diviziya" nın zabiti olarkən özünü öldürmüş, İlyas isə xəstəliyə tutularaq ölmüşdür. Sovet Rusiyasının 28 aprel 1920-ci ildə Azərbaycanı işğal etməsi ilə vəziyyət kökündən dəyişir. İnsanların mülküyyəti əlindən alınır, milli kadrlar və ziyalılar təqib edilməyə başlanır, hər şey Rusiyanın maraqlarına yönəlir. Yerli əhalinin xahişi ilə yeni hakimiyyətin rəhbərlərindən biri olan Nəriman Nərimanovun göstərişi ilə Tağıyevə mülk seçmək imkanı verilir. O özünün artıq əlindən alınmış keçmiş mülkiyyətlərindən ancaq Mərdəkandakı bağ evini seçir. Hacı Zeynalabdin Tağıyev 1924-cü il sentyabrın 1-də, axşam səkkizin yarısında, 101 yaşında vəfat etmiş və sentyabrın 4-də dəfn edilmişdir. Onun dəfninə çox böyük izdiham toplanmışdı. İnsanlar yas mərasiminə bütün Bakı və ətraf kəndlərdən ərzaq gətirirdilər. N.Nərimanovun köməkliyi ilə Bakının "Kommunist" və "Bakinskiy raboçiy" qəzetlərində onunla bağlı nekroloq çap edildi. Bir gün Axund Hacı Turab Hacı üçün Quranı, daha doğrusu, Yasin surəsini,oxuyub tərcümə edirdi. 82-ci ayəyə, yəni "Allah bir şeyə iradə eləsə, ona "Ol" deyər, o da dərhal olar" çatanda, Hacı soruşdu, yəni mənim bu qədər vardövlətim var. Allah istəsə, bir anın içində əlimdən alar? Axund cavab verir ki, bəli!" Azərbaycan Sovet hakimiyyətinin qurulması ilə demək olar ki, bütün sərvəti əlindən alınan Hacı vəsiyyət edir ki, öləndə onu Hacı Turabın ayağının altında dəfn etsinlər. Bu barədə başqa bir rəvayət belədir: Bir dəfə Hacı gedərkən sınıq bir arabaya minən Axund Hacı Turabla üzbəüz gəlir. Tez faytonu saxlatdırıb, onu Hacı Turaba bağışlamaq istəyir. Hacı Turab faytonu almır və deyir: Təşəkkür edirəm, mən nəyim varsa onunla kifayətlənirəm. Verdiklərinə görə də ilahiyə minnətdaram. Hər şey – varlını da bir anda dilənçiyə çevirə bilən Allahın əlindədir. Hacı Zeynalabdin o vaxt önəm verməsə də, hər şeyi əlindən alınandan sonra bu uzaqgörən kişinin sözlərini xatırlamamış deyildi. Ona görə də vəsiyyət edir – məni onun ayağı altında basdırın, onun ayağı bildiyini mənim başım bilmir [1, s.13].

Vətənimizdə dünyəvi milli qadın təşəkkülündə, mətbuat və mədəniyyətimizin tərəqqisi yolunda, milli ziyalı elitasının yetişməsində təmənnasız xidmətlərinin çağdaş dövlətçilik təfəkkürü konteksində yenidən dəyərləndirilməsində, onun çoxcəhətli fəaliy--yətinin dərindən tədqiqi, təbliği və müasir gəncliyə gərəyincə və yetərincə çatdırılması müstəsna əhəmiyyət daşıyır.

Bu gün ölkəmizdə bir vaxtlar az qala unudulmuş rəhmdillik və nəcib bir iş olan xeyriyyəçilik hərəkatı Tağıyevin adı ilə bağlıdır. O öz sərvətini xalqının gələcək rifahı yolunda sərf etməkdən heç vaxt çəkinməmişdir. Onun öz xalqının inkişafına yönəlmiş böyük xeyriyyəçilik fəaliyyəti tarixə və xalqımızın yaddaşına dərin həkk edilmişdir. Keçmiş sovet rejimi onu unutdurmağa çalışsa da onun adını və xidmətlərini xalqımızın yaddaşından silmək mümkün olmamışdır.

Xeyirxah əməlləri ilə xalqının qəlbində özünə abidə ucaltmış Hacı Zeynalabdin Tağıyevin bu günlərdə şəhərimizin daim insan axını olan bir məkanında sadə, vüqarlı heykəli ucaldılmışdır. Bu, sadə xalq içərisindən çıxmış milyonçu-xeyriyyəçiyə ehtiram əlamətidir.Bu gün də xeyriyyəçilik ənənələri müstəqil Azərbaycanda davam edir və daha geniş vüsət almaqdadır.

**Ədəbiyyat:**

1. Bəşiroğlu Ə. Hamının sevimlisi (H.Z. Tağıyev haqqında). Bakı:Təknur,2012, 111 s.
2. El atası : Hacı Zeynalabdin Tağıyev : biblioqrafik göstərici.- Sumqayıt, 2016, 63 s.
3. Hacı Zeynalabdin Tağıyev: Öz dövrünün aynasında .[Bakı]:"Pergament", 2020, 216 s.
4. Hacı Zeynalabdin Tağıyevin Azərbaycanda təhsilin inkişafında xeyriyyəçilik fəaliyyətindən bəzi səhifələr. Bakı : Elm və təhsil, 2020, 248 s.
5. Quliyev Ə. Tarixi ədalətin təntənəsi və ya Hacı Zeynəlabdin Tağıyevin fenomen maarifçilik fəaliyyəti //Azərbaycan müəllimi. - 2020. - 12 iyun.
6. Süleymanov M. Azərbaycan milyonçuları. Araşdırma və memuarlar. Bakı : Gənclik,1996, 96 s.

***Мухтарова Севиндж***

## МЕЦЕНАТ, ЖИВУЩИЙ В ИСТОРИИ

**Резюме**

Известный предприниматель, меценат Гаджи Зейналабдин Тагиев оставил неизгладимый след в памяти народа не только как обладатель больших богатств, но и своей просветительской и благотворительной деятельностью, мудростью, заботой о будущем своего народа, удивительной щедростью, великодушием, умением идти в ногу со временем.Многогранная предпринимательская, общественно-политическая деятельность Г.З.Тагиева была направлена на экономическое и культурное развитие Азербайджана.Он вошел в историю азербайджанского народа как благотворитель, оказавший большое влияние на подготовку национальных кадров. Своей благотворительной деятельностью Г.З.Тагиев помогал становлению и развитию в республике образования, культуры, искусства, способствовал претворению в жизнь многих полезных начинаний.Не зря азербайджанский народ называет его и поныне отцом нации.

**Ключевые слова**: *Гаджи Зейналабдин Тагиев, миллионер, благотворитель, меценат, просветитель.*

***Mukhtarova Sevinc***

## PHILANTHROPIST LIVING IN HISTORY

**Summary**

Well-known businessman, philanthropist Haji Zeynalabdin Taghiyev left an indelible mark in the memory of the people, not only as the owner of a large fortune, but also with his educational and charitable activities, his wisdom, his concern with his incredible generosity .The multifaceted entrepreneurial, social and political activity of H.Z. Taghiyev was aimed at the economic and cultural development of Azerbaijan. He entered the history of the Azerbaijani people as a philanthropist who had a great influence on the training of national personnel. With his charitable deeds, Taghiyev helped the formation and development of education, culture, art in the country , contributed to the implementation of many useful undertakings It is not in vain that the Azerbaijani people still call him the father of the nation.

**Key words:** *Tagiyev Haji Zeynalabdin, millionaire, philanthropist, mesenant, enlightening.*

*Redaksiyaya daxil olma tarixi: 12.04.2022*
*Çapa qəbul olunma tarixi: 03.05.2022*

*Tarix elmləri doktoru,dosent Tahirə Həsənzadə tərəfindən çapa tövsiyə olunmuşdur.*